## Şahin Fazil

Şeyda bülbül kimi gəlmiş dilə Şahin Fazil,
Dil verir bağçadakı bülbülə Şahin Fazil!

Tutdu yetmiş beş ilin izzət ilə bayramın,
Çata sağlamlıqla yüz ilə Şahin Fazil!

Şah əsərlər yaradıb Molla Füzulilər tək,
Yetirib karvanı son mənzilə Şahin Fazil!

Nəzm edib nəğməli divanları Od yurdunda,
Yaradıb şer ilə min-min silsilə Şahin Fazil!

Fəxridir doğma Azərbaycanımın bu şair,
Yaraşıqdır qocaman məhfilə Şahin Fazil!

Qurqudun son nəfəsi almış ələ Divanın,
Qələbə çaldı olan müşkülə Şahin Fazil!

Şah damardır Arazım, düşmənə çövlan edir,
Salmayır ortalığa fasilə Şahin Fazil!

Vətənin qulluğuna el tanıyır qulluqçu,
Sözlərin düşdü qızıl sünbülə, Şahin Fazil!

Yol salıb Təbrizə gəlsən, kəsərəm Qurbanı,
Çək dənizdən gəmimi sahilə, Şahin Fazil!

Atalıq haqqı varındır sanıram boynumda,
Ağır içlərdi salıb yüngülə Şahin Fazil!

Simdə mizrabın gəzdir, segahın səsləndir,
Şuru şahnaz elə, sal zabilə, Şahin Fazil!

Bir də gəl Təbrizə, Bağlar bağına sal mənzil,
Dər apar qırmızı salxım gilə, Şahin Fazil!

Duyğunun damcılarından çilə, könlüm dindir,
Sal işıq, çək kəpənək qəndilə, Şahin Fazil!

Açılıb duyğuların pəncərəsi Şirvandan,
Qartalı eylə qonaq əzgilə, Şahin Fazil!

Kredo 2019.- 18 dekabr.- S.15.